UOT 741/744

T Ə S V İ R İ   S Ə N Ə T

**Aslan Əkbər oğlu Xəlilov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**e-mail: aslan.ashiq@mail.ru**

# AZƏRBAYCAN RƏSSAMLARININ YARADICILIĞINDA ÇİN MÖVZUSU

**Xülasə:** Azərbaycan rəssamlarının yaradıcılığında Çin mövzusu özünün çoxcəhətli və rəngarəngliyi ilə seçilir. Müxtəlif dövrlərdə rəssamlarımız Çinin həyat və mədəniyyətini əks etdirən bir sıra maraqlı təsviri sənət nümunələri yaratmışlar. Bu mənada Nadir Qasımovun "Çin səddi", Nadir Əbdürrəhmanovun "Çində balıqçı qayıqları", Tahir Salahovun "Çinli rəssamın portreti", Altay Sadıqzadənin "Xançjoudan olan rahibə", Fəxrəddin Məmmədvəliyevin "Çin səddinin türklər tərəfindən fəthi", Arif Mərdanın "Çin mənzərəsi", Səlhab Məmmədovun "Çin ilə", Bəxtiyar Yusufovun "Çin. Xarbin şəhərinin Sunqari çayı üzərindən görünüşü", Cəlal Ağayevin "Çin gözəli" və s. əsərlərini qeyd etmək olar. Adları çəkilən bu əsərlərdə Çinin özünəməxsus koloriti, həyat tərzi, məişəti, milli ənənələri, memarlıq və təbiət mənzərələri təcəssüm etdirilmişdir.

**Açar sözlər:** Azərbaycan, rəssam, yaradıcılıq, rəngkarlıq, Çin, beynəlxalq

Tarix boyu hər bir ölkənin siyasi-ictimai həyatında beynəlxalq əlaqələrin genişlənməsi prosesi digər sahələrdə olduğu kimi Azərbaycan mədəniyyəti və incəsənətinin, xüsusilə, rəssamlıq sənətinin inkişafında da maraqlı və yeni bir səhifənin açılmasına zəmin yaratmışdır. Odur ki, rəssamlarımızın xarici ölkələrə səfər etməsi və belə səfərlər əsnasında onların yaradıcılığının yeni mövzu və surətlərlə zənginləşməsi, eyni zamanda, Azərbaycan incəsənətinin beynəlxalq miqyasa çıxmasını şərtləndirən başlıca amillərdəndir.

Azərbaycan rəssamlarının yaradıcılığında Çin mövzusundan bəhs etdikdə ilk növbədə Orta əsrlərə aid olan əlyazma kitablarına çəkilmiş illüstrasiyaları, daha dəqiq desək, Nizami Gəncəvinin "Xəmsə"sinə, xüsusilə, "Yeddi gözəl" poemasına çəkilmiş "Bəhram Gurun sarayda yeddi gözəlin təsvirlərini görməsi" (1410, 1479), "İsgəndər Çin xaqanının yanında" (1525) və b. miniatürləri xüsusilə qeyd etməliyik.

Ədəbi-tarixi mənbələrdə "Bəhram Gurun sarayda yeddi gözəlin təsvirlərini görməsi" miniatürü haqqında maraqlı mülahizələr mövcuddur. Məlumat üçün qeyd edək ki, Bəhram Gur Çin xaqanına qalib gəldikdən sonra Xəvərnəq (Karnak)

sarayını yenidən görməyə gedir. Saraya daxil olarkən orada “Yeddi gözəl”in təsvirlərini görür. Atasının ölümündən sonra Bəhram Gur hakimiyyətə keçir və həmin sarayda gördüyü yeddi şahzadənin axtarışına başlayır, onları tapır və evlənir. O, memarlara evləndiyi qadınların – yeddi gözəlin hər biri üçün möhtəşəm sarayların inşa olunması göstərişini verir. Memarlar Bəhram Gura məsləhət görürlər ki, astrologiyaya görə yer kürəsinin hər hissəsi bir planetin idarəsi altında olduğu üçün sarayların hər birini gözəllərin gəldikləri ölkələrə təsir edən planetlərin rənginə uyğun tərtib etdirsin. Beləliklə, inşaat işləri bitdikdən sonra gözəllər özünəməxsus şəkildə inşa edilmiş yeddi qübbəli sarayda yerləşdirilirlər. Bu saraylardan biri məhz günəşin hökm etdiyi Çin gözəlinə aid olan sarı günbəzli saraydır. Bütün bu nüanslar “Bəhram Gurun sarayda yeddi gözəlin təsvirlərini görməsi” miniatüründə öz bədii əksini tapmışdır. “Rəssam dairəvi (rotonda) zalı yuxarı nöqtədən təsvir edərək, zalın divarlarını və döşəməsini eyni vaxtda təsvir etmişdir. Təbriz “Xəmsə”sində (1405-1410) olduğu kimi rəssam tavanın yerində sarayın xaricdən görünən yeddi rəngli xırda günbəzlərini təsvir etmişdir. Günbəzlərdən tavan istiqamətinə doğru uzanmış şaquli “sütunlar” arasında günbəzlərin rənglərinə uyğun geyinmiş yeddi gözəlin təsvirləri divarda yerləşdirilmişdir. Gözəllərin təsvirləri tağlar daxilində yerləşdirilmiş, onlardan aşağı hissədə isə müxtəlif kompozisiyalı xalçaların təsvirləri verilmişdir. Divarların təxminən orta hissəsindən aşağı istiqamətdə yerləşdirilmiş pəncərələr yeddi gözəlin geyimlərinə uyğun rənglərdədirlər” [1; s. 41]. Çin gözəlinin portreti özünəməxsus incəliyi ilə seçilir. 1410-cu ildə Şirazda ərsəyə gəlmiş İsgəndər Sultanın “Antologiyası”ndakı “Yeddi gözəl” poemasına çəkilmiş miniatür hal-hazırda Lissabon şəhərində Gülbekyan fondunda saxlanılır.

Çin mövzulu digər miniatürlərdən biri də Sultan Məhəmməd tərəfindən 1525-ci ildə Nizami Gəncəvinin “Xəmsə”sinə, daha dəqiq desək, “İsgəndərnamə” poemasına çəkilmiş “İsgəndər Çin xaqanının yanında” adlı miniatürdür. Hal-hazırda Nyu-Yorkda Metropoliten Muzeyində saxlanılan miniatürdə “Çin xaqanı İsgəndərin şərəfinə şahanə bir məclis düzəldir və ona üç qiymətli hədiyyə – ov şahini, döyüş atı, gözəl və cəsur kəniz bağışlayır” [4; s. 118] – səhnəsi bədii görüntüyə gətirilmişdir.

Qeyd edək ki, Orta əsrlərə nisbətən XX-XXI əsrlərdə Azərbaycan rəssamlarının yaradıcılığında Çin mövzusu daha inkişaf etmiş və özünəməxsus məna-məzmun tutumu, eləcə də aktuallığı ilə seçilir. Bu da bilavasitə, ölkəmizdə çağdaş dövrdə beynəlxalq əlaqələrin, xüsusilə, Azərbaycan – Çin arasında mədəni əlaqələrin daha geniş vüsət tapması ilə əlaqədardır.

Zaman-zaman Azərbaycan rəssamlarının Çinin həyat və mədəniyyətini əks etdirən bir sıra maraqlı əsərlər yaratmışlar. Bu mənada Nadir Qasımovun “Çin səddi”, “Sixua gölü”, “Pekinin Şərq qapıları”, “Parkda qızlar”, “Suçjou ala-

qaranlıqda", Nadir Əbdürrəhmanovun "Mənzərə. Çin", "Çində balıqçı qayıqları", "Şanxay", Tahir Salahovun "Çin balıqçıları ovdan sonra", "Çinli rəssamın portreti", Altay Sadıqzadənin "Xançjoudan olan rahibə", Fəxrəddin Məmmədvəliyevin (Seyfəddinoğlu) "Dünya Çin səddində dustaqdır", Arif Mərdanın "Çin mənzərəsi", Salhab Məmmədovun "Çin ilə", Bəxtiyar Yusufovun "Çin. Xarbin şəhərinin Sunqari çayı üzərindən görünüşü", "Xarbin şəhəri", "Xarbin. Mərkəzi meydan", Cəlal Ağayevin "Çin gözəli" əsərlərini qeyd edə bilərik. Özünün çoxcəhətliliyi və rəngarəngliyi ilə seçilən bu əsərlərdə Çinin özünəməxsus koloriti, həyat tərzi, məişəti, milli ənənələri, memarlıq və təbiət mənzərələri təcəssüm etdirilmişdir.

"1960-cı ildə Nadir Qasımov Çin Xalq Respublikasına səfər etmiş və orada qaldığı üç həftə ərzində Pekin, Nankin, Şanxay, Suçjou və digər şəhərləri gəzmiş, maraqlı mənzərə əsərləri yaratmışdır. Rəssam ölkənin təbiəti üçün səciyyəvi olan parlaq rənglərin ahəngdarlığını əldə etmişdir. Onun çəkdiyi mənzərələrə tamaşa etdikcə Pekinin tarixi yerləri, Şanxayın cazibədar panoraması, Suçjounun küçə və körpüləri, milli üslubda tikilmiş imarətlər, yaşayış məntəqələrinə rövnəq verən çaylar və körpülər qarşımızda canlanır. Xalqın yaradıcı əməyi ilə əlaqədar olan yeniliyi hər yerdə görmək mümkündür. "Şanxay şəhəri" mənzərəsindəki gözəl imarətlər, şəhərin ortası ilə axan çay, körpülər və sairə təkraredilməz gözəlliyə, məşhur "Çin səddi"nin görünüşü isə sonsuz əzəmətə malikdir" [3; s. 156].

Tarix və mədəniyyət baxımından bir-birindən fərqli ölkələrə səfər etmiş və onları öz əsərlərində tərənnüm etdirmiş XX əsr Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən biri də Nadir Əbdürrəhmanov olmuşdur. Rəssamın bədii ifadə baxımından Çin mövzulu müxtəlif əsərlərini Çinin şəhər və təbiət mənzərələri, eləcə də Çin xalqının rəngarəng həyat tərzi birləşdirir. "Mənzərə. Çin" (1968), "Şanxay" (1968), "Çində balıqçı qayıqları" (1992) və s. əsərlər Nadir Əbdürrəhmanovun Çin xalqına və onun mədəniyyətinə həsr olunmuş maraqlı rəngkarlıq və qrafik nümunələrindəndir. Rəssamın "Çinə həsr etdiyi rəsmlər şəffaf, incədir, sanki kətan üzərində deyil, bu qədim ölkənin incəsənətinin zərif, təmkinli və rəmzi xarakterini açıb göstərən şəffaf, işıq keçirən parça üzərində çəkilib" [6; s. 44].

Çin mövzusuna müraciət etmiş Azərbaycan rəssamlarından biri də çağdaş dövr Azərbaycan təsviri sənətində daha çox batal janrlı əsərlərin müəllifi kimi tanınan Fəxrəddin Məmmədvəliyevdir. Rəssamın Çin mövzusuna həsr olunmuş "Dünya Çin səddində dustaqdır" əsəri özünün dərin məna-məzmun və yüksək bədii-estetik tutumuna görə seçilir. Eyni zamanda bu əsər kompozisiya mürəkkəbliyinə və bədii şərhinə görə də xüsusi diqqət çəkir.

Fəxrəddin Məmmədvəliyevin çoxfiqurlu kompozisiyalı "Dünya Çin səddində dustaqdır" əsəri, doğrudan da, Çin mövzulu təsviri sənət xəzinəmizi

zənginləşdirən əsərlərdəndir. Rəssamın sayagəlməz fiqurlarla zəngin olan digər Çin mövzulu tabloları özünün ifadə orijinallığına və yüksək icra üslubuna görə Orta əsrlərin miniatür üslublu əsərləri ilə assosiasiya yaradır.

Müasir dövr Azərbaycan rəssamlığının gənc nəslinin nümayəndələrindən olan Bəxtiyar Yusufovun yaradıcılığında Çin mövzulu əsərlər böyük önəm daşıyır. Belə ki, 2014-cü ildə bir qrup görkəmli Azərbaycan rəssamları ilə Çinə təhsil mübadiləsi proqramı çərçivəsində ezam olunmuş gənc rəssamımız orada bir-birindən maraqlı etüdlər etmiş və bir neçə əlvan koloritli rəngkarlıq əsərləri ərsəyə gətirmişdir. “Çin. Xarbin şəhərinin Sunqari çayı üzərindən görünüşü”, “Xarbin şəhəri”, “Xarbin. Mərkəzi meydan” və s. əsərlər Bəxtiyar Yusufovun Çin mövzulu maraqlı rəngkarlıq tablolarındandır. Bu tablolarda, xüsusilə, Çinin müasir memarlıq və şəhər mühiti, eləcə də dəniz, göl və meşə təsvirləri təcəssüm etdirilmişdir. Yaratdığı əsərlərdə həmişə rəng əlvanlığını qoruyan və realist təsvir metoduna sadiq qalan Bəxtiyar Yusufov Çin mövzulu əsərlərinin hər birində günəşin parlaqlığını əks etdirməklə sanki bu ölkənin – Şərqin gündoğar ərazi olduğuna işarə vermişdir.

Sonda nəticə etibarilə qeyd edək ki, əvvəllər olduğu kimi bu gün də Azərbaycan rəssamlarının yaradıcılığında Çin mövzusu öz aktuallığını qoruyub saxlamaqdadır. Bu isə bilavasitə, Azərbaycan – Çin mədəni əlaqələrinin öz inkişaf dinamikasını qorumasının əyani göstəricisidir. Başqa sözlə desək, bu gün də “mədəni mübadilə çərçivəsində ənənəvi sərgi, festivallar, mədəniyyət günləri formatından başqa, akademik bədii təhsil sahəsi, ustad dərsləri, treninq və seminarlar, ortaq layihələr kimi modellər tətbiq edilir. Qeyd olunan aspektdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycanda fəaliyyət göstərən Konfutsi İnstitutunun səmərəli fəaliyyəti nümunəvidir. Ötən illər ərzində “Çin çiçəklər səltənəti” geyim kolleksiyasının nümayişi (2018), “Çin ADMİU-nun gözü ilə” fotosərgisi, ADMİU-nun tələbələrinin Konfutsi İnstitutunun təşkilatı ilə Çinə səfəri haqqında fotohesabat (2018), ADMİU-da Konfutsi günü (2019) kimi layihələr uğurla baş tutmuşdur” [5].

## Ədəbiyyat siyahısı:


1. Abdullayev, N. Orta əsrlər miniatürləri əsasında interyer və eksteryerlərin bədii həlli: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. /- Bakı: 2013. – 133 s.
2. Əliyev, Z. Fəxrəddin Seyfəddinoğlu (Məmmədvəliyev). Çağdaş rəssamlığımızın fenomeni. - Bakı: Yenipoliqrafist, - 2012. – 154 s.
3. Həbibov, N. Azərbaycan sovet rəssamlığı. - Bakı: Azərbaycan, - 1966. – 188 s.
4. Kərimov, K. Azərbaycan miniatürləri. - Bakı: Şərq-qərb, - 2013. – 248 s.

5. Kərimova, S. Azərbaycan – Çin mədəni əlaqələrinin təsviri aspekti. - Bakı, 23 iyul, 2021. URL: https://moderator. az/read/386919/
6. Qacar, G. Nadir Əbdürrəhmanov. “Sərvət” toplusu. -Bakı: Şərq-Qərb, - 2013. – 104 s.

**Аслан Акбер оглы Халилов**

## КИТАЙСКАЯ ТЕМА В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ ХУДОЖНИКОВ

**Резюме:** Китайская тема в творчестве азербайджанских художников отличается своей многогранностью и разнообразием. В разные времена к этой теме обращались наши художники. В связи с этим можно отметить такие работы художников как, “Китайская стена” Н. Гасымова, “Рыбацкие лодки” Н. Абдуррахманова, “Портрет китайского художника” Т. Салахова, “Монахиня из Ханчжоу” А. Садыгзаде, “Взятие тюрками Китайской стены” Ф. Мамедалиева и др. В этих произведениях нашли свои отображения своеобразный колорит Китая, жизненный уклад, быт, национальные традиции, архитектура и пейзаж Китая.

**Ключевые слова:** Азербайджан, художник, творчество, Китай, колорит, международный.

**Aslan Akbar oghlu Khalilov** **CHINESE THEME IN CREATION OF AZERBAIJANI ARTISTS**

**Summary:** Chinese theme in creation of Azerbaijani artists differs with its diversity and coloring. During different periods our artists have created a number of interesting examples of fine arts which reflect life and culture of China. We can note Nadir Qasimov`s “Chinese wall”, Nadir Abdurrahmanov`s “Fishing boats in China”, Tahir Salahov`s “The portrait of a Chinese artist”, Fakhraddin Mammadvaliyev`s “Conquest of the Chinese wall by the Turks”, Arif Mardan`s “Chinese view”, Jalal Aqayev`s “Chinese beauty” etc. In these works, were reflected Chinese coloring, life style, national traditions, architecture and natural views.

**Key words:** Azerbaijan, artist, creation, coloring, China, international

**Məqalənin redaksiyaya daxil olma tarixi: 26.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimova**